**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm: ______________________**

**"Maliyyə və audit" kafedrasının müdiri,**

**i.e.d., prof. Ələkbərov Əvəz Əkbər**

**12 sentyabr 2024 -ci il**

# "SABİT GƏLİRLİ QİYMƏTLİ KAĞIZLAR VƏ TÖRƏMƏ MALİYYƏ ALƏTLƏRİ" fənni üzrə İŞÇİ TƏDRİS PROQRAMI

**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | 00755 |
| **Fənnin növü:** | *əsas* |
| **Tədris ili:** | *2022/2023* |
| **Tədris semestri:** | *payız* |
| **Tədris forması:** | *əyani* |
| **Fakültə:** | "Maliyyə və mühasibat" |
| **Qrup:** | İİE |
| **Tədris yükü:** | *30 /15* |
| **Kredit sayı:** | 5 |
| **Kafedra:** | "Maliyyə və audit" |

## II. Müəllim haqqında məlumat

| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **i.ü.f.d., dos. Alidə Hüseynova** |
| | **Müəl.S.X.Hüseynova** |
| **E-mail ünvanı:** | **alida-gusenova@mail.ru** |

**İş telefonu:** **012 492-59-13, 012 492-40-04**

## III. Fənnin təsviri

*Sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətlərinə aid mövzuların tədqiqi, pulun gələcək dəyəri, risklərin mahiyyəti, rolu və özəllikləri, faiz dərəcəsi riski və onun idarə edilməsi strategiyaları, gəlirlilik əyrisi və gəlirdəki dəyişikliklər, inflyasiya hədəflənməsinin üstünlükləri və çatışmazlıqları, səhmin mahiyyəti və onun növləri, səhmin qiymətləndirilməsi meyarları, idarə edilməsi, təşkilati strukturu və reqlamenti, istiqrazlar və onun növləri, istiqrazların qiymətləndirilməsi və gəlirlik, törəmə maliyyə alətləri ilə ümumi tanışlıq və onlardan istifadə qaydaları, törəmə maliyyə alətlərinin qiymətləndirilməsi və səmərəli idarə olunması, forvard və fyuçerslərin mahiyyəti, forvard və spot bazarları arasındakı əlaqə, valyuta və faiz dərəcəsi svoplarının mahiyyəti, opsionlar və onların qiymətləndirilməsi, hedcinq əməliyyatlarının aparılması qaydaları kimi mövzular maliyyə bazarlarında tədqiqat obyekti kimi xüsusi əhəmiyyət kəsb edir və bu cəhətdən yuxarıda qaldırılan bütün suallar cavablandırılmışdır.*

## IV. Fənnin məqsədi və vəzifələri

*"Sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətləri" fənninin tədrisində əsas məqsəd - pulun gələcək dəyərinin, faiz dərəcəsi riskinin idarə edilməsi strategiyalarının, gəlirlilik əyrisi və gəlirdəki dəyişikliklərin, inflyasiya hədəflənməsinin üstünlüklərini və çatışmazlıqlarını, səhmin növlərini, səhmin qiymətləndirilməsini, istiqrazların növlərini, istiqrazların qiymətləndirilməsini və gəlirliyini, törəmə maliyyə alətlərini istifadə qaydalarını, törəmə maliyyə alətlərinin qiymətləndirilməsini, forvard və fyuçerslərin maliyyə bazarlarında rolunu və əhəmiyyətini, forvard və spot bazarları arasındakı əlaqəni, valyuta və faiz dərəcəsinin daxili idarəedilməsini, fəaliyyətinin tənzimlənməsini, svop və opsionların qiymətləndirilməsini, hedcinq əməliyyatlarını təhlil etmək bacarığını öyrətmək və izah etməkdir.*

*"Sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətləri" fənninin tədrisi bazar iqtisadiyyatına keçid şəraitində həyatın bütün sahələrində baş verən iqtisadi yeniliklərin öyrənilməsi baxımından da əhəmiyyətlidir.*
*"Sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətləri" kursunu öyrənən tələbələr habelə maliyyə bazarlarını tənzimləyən qanunvericilik aktları və normativ sənədləri də bilməlidirlər.*
*Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:*

- *fənni bitirdikdən sonra tələbə sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətləri haqqında tam məlumat əldə edir.*
- *maliyyə bazarlarının tənzimlənməsini əks etdirən normativ-hüquqi sənədlərlərlə yaxından tanış etmək;*
- *kreditlərin verilməsi və geri qaytarılması, bankın qiymətli kağızlarla və digər əməliyyatlarından istifadə etmək bilikləri əldə ediləcəkdir.*
- *fənnin tədrisindən sonra tələbələr maliyyə bazarlarında iqtisadi münasibətlərin qurulması, maliyyə alətlərinin xidmət növlərinin mahiyyətinə yiyələnməlidir.*

- *sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətləri haqqında komleks nəzəri biliklər vermək;*
- *maliyyə bazarlarının xidmət və məhsulları, sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətlərinin təhlili qaydalarını praktik olaraq istifadəsini öyrətmək;*
- *tələbələri müasir qiymətli kağızlar bazarının vəziyyəti, inkişafı və problemləri haqqında məlumatlandırmaq və maliyyə bazarlarında istifadə olunan əsas anlayışların izahını verməkdir.*

**V. Öyrənmənin nəticələri:**

*Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:*

**Bilməlidirlər:**

- Qiymətli kağızların mahiyyətini, funksiyalarını və təsnifatını
- Sabit gəlirli qiymətli kağızların novlərinin və onların xüsusiyyətlərini
- Pulun gələcək dəyərini və onun hesablanmasını
- Faiz dərəcəsi riski və onun idarə edilməsi strategiyalarını
- Gəlirlilik əyrisi və gəlirdəki dəyişiklikləri
- İnflyasiya hədəflənməsinin üstünlüklərini və çatışmazlıqlarını
- Səhmin növlərini və qiymətləndirilməsini
- İstiqrazların növlərini, qiymətləndirilməsi və onun gətirdiyi gəliri
- Törəmə maliyyə alətlərinin qiymətləndirilməsini
- Forvard və fyuçerslərin mahiyyətini
- Forvard və spot bazarları arasındakı əlaqəni
- Valyuta və faiz dərəcəsi svoplarını, onun strukturunu
- Opsionlar və onların qiymətləndirilməsini
- Hedcinq əməliyyatlarını

**Bacarmalıdırlar**:

- əlaqəli iqtisadi hadisələrin, proseslərin və institutların makro və mikro səviyyədə təhlilini
- müstəqil tapşırıqların yerinə yetirilməsi, məlumatların toplanılması, vəzifələri həll etmək üçün zəruri məlumatların təhlili;
- qiymətli kağızlar bazarında baş verən proseslərin, sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətləri haqqında statistikaların təhlili və şərhi.

**VI. Fənnin mühazirə mövzuları**

Burada fənn üzrə tələbələrə oxunacaq mühazirə mövzularının adları təqdim olunur:

1) *Qiymətli kağızların mahiyyəti, funksiyaları və təsnifatı*
2) *Sabit gəlirli qiymətli kağızlar*
3) *Pulun gələcək dəyəri*
4) *Faiz dərəcəsi riski və onun idarə edilməsi strategiyaları*
5) *Gəlirlilik əyrisi və gəlirdəki dəyişikliklər*
6) *İnflyasiya hədəflənməsinin üstünlükləri və çatışmazlıqları*
7) *Səhm və onun qiymətləndirilməsi*

8) *İstiqrazlar və onun qiymətləndirilməsi*
9) *Törəmə maliyyə alətləri ilə ümumi tanışlıq və onlardan istifadə*
10) *Törəmə maliyyə alətlərinin qiymətləndirilməsi*
11) *Forvard və fyuçerslər*
12) *Forvard və spot bazarları arasındakı əlaqə*
13) *Valyuta və faiz dərəcəsi svopları*
14) *Opsionlar və onların qiymətləndirilməsi*
15) *Hedcinq əməliyyatları*

**VII. Prerekvizitlər**

*Fənnin tədrisi üçün öncədən "Maliyyə bazarları" fənninin tədrisi zəruri hesab edilir.*

**VIII. Fənnin tədris metodologiyası**

*Sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətləri fənninin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, məsələlərin izahlı şəkildə həll edilməsi, kiçik qruplarda iş, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və "Quizizz" proqramı ilə test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.*

**IX. Fənnin mühazirə mətnləri**

*Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.*

**X. Əsas dərslik və ədəbiyyat**


1. Ə.Ə.Ələkbərov, Z.F.Məmmədov, A.T.Hüseynova "Maliyyə bazarları" dərs vəsaiti Bakı 2021. S.228.
2. A.E.Kərimov, A.A.Babayev "Qiymətli kagızlar bazarı". Dərslik Bakı 2003 il 340səh.
3. E.Sadıqov "Azərbaycanın Maliyyə bazari və onun inkişaf perspektivləri". SanktPeterburq – 2003.
4. "Pul və banklar" Dərslik. R.A.Bəşirovun ümumi rəhbərliyi ilə müəlliflər kollektivi
5. F.S.Mişkin "Pul, bank və maliyyə bazarlarının iqtisadiyyatı" S. 617 2021
6. Kotke Klaus. "Çirkli" pullar – bunlar nədir? "Çirkli" pullar sahəsində vergi qanunvericiliyinə dair sorğu / Alman dilindən tərcümə. M., 1998. S. 674-683).
7. M.M.Bağırov "Bank işi" dərslik, Bakı, 2003.
8. Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik.2016. X fəsil Səh. 1000
9. Рынок ценных бумаг: учебное пособие для вузов / под ред. Е.Ф. Жукова. — М.: ЮНИТИ-ДАНА, 2007. 460səh.
10. Волосский А.А. Инструменты финансового рынка: учебное пособие. — Новосибирск, 2000. 270 səh.

11. Клоков В.И. Финансовые рынки: учебное пособие. — СПб.: Изд-во СЗАГС, 2005.
12. Суэтин А.А. Международный финансовый рынок: учебник для студентов. — М.: КНОРУС, 2007.
13. Баринов Э.А., Хмыз О.В. Рынки: валютные и ценных бумаг. М.: Экзамен, 2001.
14. Brealey.R.A, Myers S.C, Allen F. Principles of corporate finance. 12th edition. 2016
15. Berk J., DeMarzo P. Corporate finance 3th edition. 2015
16. http://www.cbar.az

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| *1* | Qiymətli kağızların mahiyyəti, funksiyaları və təsnifatı | Qiymətli kağızların ümumi səciyyələndirilməsi, təsnifatı. | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədo, A.T.Hüseynova- Maliyyə bazarları‖ Dərs vəsaiti Bakı 2021 |
| *2* | Sabit gəlirli qiymətli kağızlar | Adi səhm və İmtiazlı səhm. Adi səhmin qiymətinin hesablanması. Bazar qiymətli kağızlarının qiymətlərini necə təyin edin? Qiymətləndirmədə səhvlər. Səhm bazarının idarə olunması. | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədo, A.T.Hüseynova - Maliyyə bazarları‖ Dərs vəsaiti Bakı 2021 |
| *3* | Pulun gələcək dəyəri | Pulun meydana gəlməsi və növləri, pul tədavülü, pul aqreqatları və pul multiplikatoru, xalis cari dəyər, pulun gələçək dəyəri | "Pul və banklar" Dərslik. R.A.Bəşirovun ümumi rəhbərliyi ilə müəlliflər kollektivi S. 27-46 |
| *4* | Faiz dərəcəsi riski və onun idarə edilməsi strategiyaları | Faiz dərəcəsi riski, uçot dərəcəsi, risklərin idarə edilməsi strategiyaları, risklərin təsnifatı və idarə edilməsi sistemi, risklərin idarə edilməsi prosesi | Brealey.R.A, Myers S.C, Allen F. Principles of corporate finance. 12th edition. 2016 |
| *5* | Gəlirlilik əyrisi və gəlirdəki dəyişikliklər | Əhalinin gəlirləri və onların funksiyaları, gəlirlərin differensiyallaşdırılması, gəlirlərin növləri, gəlirlilik əyrisi, dövlət büdcəsi gəlirləri | F.S.Mişkin "Pul, bank və maliyyə bazarlarının iqtisadiyyatı" S. 105-134 |

| | | | |
|---|---|---|---|
| *6* | İnflyasiya hədəflənməsinin üstünlükləri və çatışmazlıqları | İnflyasiyanın mahiyyəti, forma və növləri, səbəb və amilləri, inflyasiyanın tənzimlənməsinin metod və istiqamətləri, pul islahatlarının mahiyyəti, Azərbayjanda inflyasiya hədəflənməsinin üstünlükləri və çatışmazlıqları. | Ə.Ə.Ələkbərov, F.Ş.Kaşıyeva “Pul və banklar” Dərs vəsaiti Bakı 2018 |
| ***7*** | Səhm və onun qiymətləndirilməsi | Səhmin mahiyyəti və növləri, səhmin üstünlükləri və səhmin emissiyasında əsas məqsəd. | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədov, A.T.Hüseynova “Maliyyə bazarları” Dərs vəsaiti Bakı 2021 |
| ***8*** | İstiqrazlar və onun qiymətləndirilməsi | Istiqrazların mahiyyəti və növləri, istiqrazların emitenti kimdir, korporativ istiqrazların üstünlükləri, korporativ istiqrazların emitent üçün üstünlükləri, korporativ istiqrazların mənfi cəhətləri, İstiqrazların gəlirliliyi necə hesablanır, istiqrazların qiymətləndirilməsi. | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədov, A.T.Hüseynova “Maliyyə bazarları” Dərs vəsaiti Bakı 2021 |
| ***9*** | Törəmə maliyyə alətləri ilə ümumi tanışlıq və onlardan istifadə | Maliyyə alətlərinin növləri, pul bazarının alətləri, kapital bazarının alətləri, törəmə maliyyə alətləri (derivativləri). | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədov, A.T.Hüseynova- Maliyyə bazarları Dərs vəsaiti Bakı 2021 |
| ***10*** | Törəmə maliyyə alətlərinin qiymətləndirilməsi | Törəmə maliyyə alətlərinin növləri, maliyyə alətlərinin maliyyələşdirilməsi, törəmə maliyyə alətlərinin qiymətləndirilməsi. | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədov, A.T.Hüseynova- Maliyyə bazarları Dərs vəsaiti Bakı 2021 |
| **11** | Forvard və fyuçerslər | Fyuçers bazarı, fyucersin əsas xüsusiyyə fyucers bazarında fəaliyyət göstərmənın əsas səbəbləri, forvard müqaviləsi. | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədov, A.T.Hüseynova- Maliyyə bazarları Dərs vəsaiti Bakı 2021 |
| ***12*** | Forvard və spot bazarları arasındakı əlaqə | Forvard müqaviləsi, spot müqaviləsi, spot və forvard qiyməti arasındakı əlaqə, forvard qiymətlə gözlənilən gələcək qiymət arasındakı əlaqə. | "Dövriyyə forvardlarını başa düşmək" (PDF). Alındı 28 iyun 2020. |

| | | | |
|---|---|---|---|
| ***13*** | Valyuta və faiz dərəcəsi svopları | Valyuta svopları haqqında, svop müqaviləsi, valyuta, faiz svopu, svop əməliyyatının üstünlükləri və zəiflikləri, svop əməliyyatlarında tərəf olan təşkilatlar. | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədo, A.T.Hüseynova - Maliyyə bazarları‖ Dərs vəsaiti Bakı 2021 |
| ***14*** | Opsionlar və onların qiymətləndirilməsi | Opsionun mahiyyəti, opsionun növləri, opsion müqaviləsi, opsiyon mükafatı, opsion müqaviləsinin digər müqavilələrlə fərqli xüsusiyyətləri. | Ə.Ə.Ələkbərov, Z.F.Məmmədo, A.T.Hüseynova - Maliyyə bazarları‖ Dərs vəsaiti Bakı 2021 |
| ***15*** | Hedcinq əməliyyatları | Hedcinq əməliyyatlarının yaranması və üstunlükləri, hedcinq strategiyasını daha səmərəli etmək, problemləri vaxtında həll etmək. | F.S.Mişkin - Pul, bank və maliyyə bazarlarının iqtisadiyyatı‖ S. 160-197 |

**XII. Seminar-məşğələlər**

*Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:*

*1) Seminar məşğələsinin har bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı*

*2) Müvafiq mühazirə materiallırını diqqətlə öyrənməli;*

*3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;*

*4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı*

*5) Mövzu üzrə verilən praktik tapşırıqları ve məsələri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.*

*Seminar -məşğələlərdə komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması, əyləncəli və öyrədici krossvordaların işlənilməsi və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə ediləcəkdir.*

*Tələbənin məşğələlədəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum l0 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda semestr ərzində tələbənin bütün cavab ballar toplanır ve tələbənin cavablarını ümumi sayına bölünməklə orta qiymet (bal) hesablanır.*

**XIII. Fənn üzrə kurs işi**

*Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.*

**XIV. Sərbəst işlər: tələblər və qiymətləndirmə**

*UNEC-də sərbəst işlərin təqdim edilməsi və qiymətləndirilməsi şəxsi kabinetlər vasitəsi ilə elektron qaydada həyata keçirilir;*

*Müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq UNEC-də sərbəst işlərin aşağıdakı növləri müyyən edilir və müəllimlər növlər üzrə formanın (fərdi, komanda, qrup tapşırığı və s.) seçilməsində sərbəstdirlər:*

- *semestr ərzində tədris olunan mühazirə mövzularından birinə uyğun olaraq 10 ballıq bir sərbəst iş;*
- *semestr ərzində tədris olunan mühazirə mövzularından hər hansı ikisinin seçilməsi ilə 5 ballıq iki sərbəst iş;*
- *semestr ərzində tədris olunan mühazirə mövzularına uyğun 1 ballıq on sərbəst iş.*

*Sərbəst işlər elektron və ya əl yazısı şəklində hazırlana bilər. Tələbə tərəfindən yazılan elektron (pdf, word, power point) və ya əl yazısı (yazının şəkili çəkilərək jpeg. formatında) olan sərbəst iş sistemə yüklənilməklə avtomatik olaraq müəllimə göndərilir; Sərbəst işlər tələbənin fərdi tədqiqatının məcmusu olduğuna görə plagiat (köçürmə) yolverilməzdir;*

***XV.Fənn üzrə qiymətləndirmə***

*Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı -100 baldır.*

*Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır. Fənn üzrə tələbənin əldə edə biləcəyi-yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:*

| ***İstiqamət*** | ***Ballar*** | ***Faiz*** |
|---|---|---|
| *İmtahan (Final)* | *50* | *50%* |
| *Seminar (məşğələ) və laborator dərslərin nəticələrinə görə* | *30* | *30%* |
| *Tələbələrin sərbəst işinə görə* | *10* | *10%* |
| *Davamiyyət* | *10* | *10%* |
| ***Cəmi:*** | ***100*** | ***100%*** |

*Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:*

***51 baldan aşağı olduqda - "qeyri-kafi" - F***

***5 1 -60 bal - "Qənaətbəxş"- E***

***6l- 70 bal- "Kafi"- D***

***71- 80 bal- "Yaxşı"- C***

***81- 90 bal- "Çox yaxşı" - B***

***91- 100 bal- "Əla" - A***

*Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.*